**Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik**
AZ1108, Azərbaycan, Bakı şəhəri, İbrahimpaşa Dadaşov küçəsi, 260
Telefon : (+99412) 497-38-51 Faks : (+99412) 497-44-27
E-mail: **novbetchi@anama.gov.az** Veb-sayt: **www.anama.gov.az**
https://www.facebook.com/anama.anama.180 https://twitter.com/ANAMA_gov_az

# 22 Yanvar 2018-ci il tarixində Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) tərəfindən Xızı rayonunda aşkar olunmuş Partlamamış Hərbi Sursatlar (PHS) haqqında

## GÜNDƏLİK OPERATİV MƏLUMAT

Xızı rayonu ərazisində yerləşən Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin sursat anbarında baş vermiş partlayışla əlaqədar Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) və Fövqəladə Hallar Nazirliyinin (FHN) birgə keçirdiyi təmizləmə əməliyyatları barədə:

**22 Yanvar 2018-ci il tarixində** partlayış baş vermiş hərbi hissənin ətrafına baxış keçirilmiş, **192 ədəd partlamamış hərbi sursat (PHS)**, 361 ədəd partlamış-yanmış mərmi qalıqları və **840 kq yandırma məhsulu** aşkar edilərək götürülmüş, nəticə etibarilə **3 507 175 kv.m (350.72 ha)** ərazi yoxlanılmışdır.

**Ümumiyyətlə, 115 gün ərzində 12 ev, 46 evin həyətyanı sahəsinə, 16 ferma ərazisinə, 45 əkin sahəsinə, 13 otlaq sahəsinə, 2 məktəb ərazisinə, 3 dəmiryolu xətininə, 1 rabitə qovşağına, 1 telestudio ərazisinə, 2 kənd qəbirstanlığına, 1 su kanalına, 1 istixanaya, 1 hərbi şəhərciyə, 1 kənd məscidinin yaxınlığına, su stansiyasına, Bakı-Novorossiysk neft kəmərin və Bakı-Rostov dəmiryol xəttinin Xızı rayonundan keçən hissəsinə, neft quyusunun ətrafına, balıqçılıq və zeytunçuluq təsərrüfatına, eko-turizmin həyətyanı sahəsinə, dəniz sahilinə, taxıl anbarının yaxınlığına, yol kənarına, Samur-Abşeron kanalı istismar idarəsinin Taxta körpü-Ceyranbatan kanalının içərisinə, ətrafına, dükerlərə, 6 saylı Yaşıllaşdırma idarəsinin ərazisinə baxış keçirilmiş, 25 451 ədəd partlamamış hərbi sursat (PHS), 18 053 ədəd partlamış-yanmış sursat qalıqları və 100 687 kq yandırma məhsulu aşkar edilərək götürülmüş, nəticə etibarilə 83 321 844 kv.m (8 332 ha) ərazi yoxlanılmışdır.**

Bununla yanaşı, Xızı rayonun Giləzi qəsəbəsi, Sitalçay, Yeni Yaşma, Şurabad kəndləri ərazisində 10 422 nəfər yerli sakin arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılmışdır.








